Məhərrəmov Amil Kamil oğlu,
Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının "Konstitusiya hüququ, bələdiyyə hüququ" ixtisası üzrə doktorantı
E-mail: amil.meherremov2608@gmail.com

UOT 342
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0115

FİZİKİ VƏ HÜQUQİ ŞƏXSLƏRİN KONSTİTUSİON HÜQUQLARINDAN OLAN BƏRABƏRLİK HÜQUQUNUN İNZİBATİ İCRAAT ZAMANI TƏMİN EDİLMƏSİ

***Açar sözlər*:** *inzibati icraat, inzibati akt, inzibati məhkəmə icraatı, maraqlı şəxs, bərabərlik hüququ.*

Ключевые слова: *административное производство, административный акт, административное судебное производство, интересный человек, право на равенство.*

Keywords: *administrative proceedings, administrative act, administrative court procedure, interesting person, the right to equality.*

Müasir dövrdə hüquqi dövlətin vacib atributlarından biri də insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsidir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Konstitusiyasının ən geniş hissəsini məhz "İnsan və vətəndaş hüquq və azadlıqları" adlanan 3-cü fəsil təşkil edir. Həmin fəsildə ümumi göstərişlər nəzərdə tutulsa da, ayrı-ayrı qanunvericilik aktlarında həmin hüquqlar daha ətraflı və geniş kontekstdə əks etdirilmişdir.

Təqdim olunan məqalədə isə həmin konstitusion hüquqlardan biri olan bərabərlik hüququnun inzibati icraat zamanı inzibati orqanların fəaliyyətində təmin edilməsinin hüquqi əsasları, həmçinin bərabərlik hüququnun təmin edilməsi ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin vahid məhkəmə təcrübəsini müəyyən edən 3 ulduz statuslu qərarı təhlil edilir.

Ümumiyyətlə, ayrı-seçkiliyin qadağan edilməsi və bərabərlik prinsipi baxımından hər kəs öz şəxsiyyətinə və onun inkişafına görə məsuliyyət daşıyır, həmçinin fərqlilikləri qəbul etmək və fundamental tolerantlığın qorunmasında başqalarının üzərinə məsuliyyət qoyur [13]. Faktiki bərabərliyə nail olmaq üçün ayrı-seçkiliyin qarşısının alınmasının hüquqi müdafiəsi və müvafiq hüquqi tənzimləmələrin səmərəli hüquqi mexanizmlərin işlənib hazırlanması əsas şərt sayılır. Ayrı-seçkiliyin qadağasını konseptual şəkildə anlamaq və onun hüquq sistemi çərçivəsində qorunmasını təhlil etmək üçün onun bərabərlik prinsipi ilə əlaqəsini və bu kontekstdə ayrı-seçkiliyin müxtəlif təzahürlərini qiymətləndirmək lazımdır [4].

Bərabərlik prinsipi və ayrı-seçkiliyin qadağan edilməsi bəzən bir-birini əvəz etsə də, hətta

bu iki anlayış məzmun və hüquqi tənzimləmə baxımından bir-biri ilə sıx əlaqəli görünsə də, sinonim deyildir [12]. Ona görə də bu kontekstdə bərabərlik prinsipi və ayrı-seçkiliyin qadağan edilməsi ilk növbədə onların bir-biri ilə əlaqəsi kontekstində və müxtəlif təzahürləri nəzərə alınmalıdır.

Bərabərlik prinsipi qanunun aliliyinin bir hissəsi, fundamental hüquq və ya bəzən sadəcə olaraq dövlətlərin idarə olunmasını tənzimləyən müstəqil fundamental prinsip hesab olunur. Bərabərlik təminat və ya bəyannamədən kənara çıxan bir çox hüquqi təminatların reallıq sərhədlərini ortaya qoyan fundamental dəyər kimi ortaya çıxır. Bərabərlik prinsipinin mənasını və onun ayrı-seçkiliyin qadağan edilməsi ilə necə əlaqəli olduğunu başa düşmək üçün formal bərabərlik və maddi bərabərlik arasındakı fərq ön plana çıxır.

Formal bərabərlik anlayışı hər kəsin verilmiş şəraitdə bərabər olduğu fərziyyəsinə əsaslanır. Hesab olunur ki, indiki vəziyyətdə heç bir ayrı-seçkilik olmadıqda bərabərlik əldə edilir. Başqa sözlə, bərabərliyin mövcudluğu üçün mövcud vəziyyəti saxlamaq kifayətdir. Formal bərabərlik anlayışından fərqli olaraq, maddi bərabərlik anlayışı fərdlər və fərdlər qrupları arasındakı fərqləri nəzərə alır [14]. Heç bir dəyişəni nəzərə almadan hamının bərabər olması fərziyyəsindən irəli gəlmir. Mövcud bərabərsizliklər qəbul edildiyi üçün onları aradan qaldırmaq üçün müxtəlif tədbirlərə, məsələn, müvəqqəti xüsusi tədbirlərə əl atmaq zəruri hesab edilə bilər.

Formal və maddi bərabərlik arasındakı əlaqə mürəkkəb və dəyişkəndir. Bu əlaqə müxtəlif yollarla şərh edilə bilər. Marksist nəzəriyyədə qəbul edilən yanaşmaya əsasən, formal bərabərlik və maddi bərabərlik anlayışları arasındakı münasibət hökmranlıq münasibəti kimi qiymətləndirilə bilər [5]. Bu nöqteyi-nəzərdən formal bərabərliyi təmin edən hüquqlar konkret bərabərsizliklərə məhəl qoymayan, onlardan abstrakt çıxaran, mövcud bərabərsizlik şərtlərini olduğu kimi qoyan, hətta bərabərsizlikləri qəbul edib gücləndirməklə bundan kənara çıxan xarakter daşıyır.

Bu gün istər beynəlxalq sənədlərdə, istərsə də daxili hüquqi tənzimləmələrdə fərqliliklər və yanaşma dəyişiklikləri görünsə də, formal bərabərlik anlayışının geniş şəkildə qəbul edildiyini söyləmək olar. Bu yanaşmada qanun qarşısında bərabərlik və qanunlarla təmin edilən bərabər müdafiə bərabərliyin minimum ölçüsü kimi ifadə edilir. [2]

Əgər formal bərabərliyin başa düşülməsi fərqli olmaq hüququna məhəl qoymamağa gətirib çıxararsa, o zaman formal və substantiv bərabərlik bir-biri ilə rəqabət aparacaq və bu mənada hökmranlıq münasibəti yaranacaq. Bununla belə, maddi bərabərliyə məhəl qoymadan formal bərabərliyin təmin edilməsi bərabərlik prinsipinin minimum ölçüsü kimi deyil, ilk addım kimi qiymətləndirilə bilər. Həqiqətən də, əgər formal bərabərliyin ifadəsi olan qanun qarşısında bərabərlik təmin oluna bilmirsə, onda fərqliliklərin qorunması və maddi bərabərliyə nail olunması gözlənilə bilməz.

Bərabərlik prinsipinin bir tərəfi, mahiyyətcə dolayı ayrı-seçkiliklə ifadə edilən fərqin qəbul edilməsidir. Fərqli olmaq hüququ fərqli olanların ilk növbədə qanun qarşısında bərabər olması deməkdir. Fərqliliyin hüquq kimi qəbul edilməsi bərabərlik prinsipinin müxtəlif fərdi vəziyyətlərə uyğunlaşdırılması ilə mümkündür və ayrı-seçkiliyin qadağan edilməsi bununla da öz hüquqi əsaslarını tapır [11]. Ayrı-seçkiliyin qadağan edilməsi və bərabərlik prinsipi hər kəsi öz şəxsiyyətinə və şəxsiyyətinin inkişafına görə məsuliyyət daşımaqla yanaşı, fərqliliklərin qəbul edilməsində və fundamental dözümlülüyün təsdiqində də başqalarının üzərinə məsuliyyət qoyur.

İnzibati icraatda bərabərlik hüququnun hüquqi əsaslarını müəyyən etmək üçün ilk növbədə

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə müraciət etmək zəruridir. Həmin maddənin III hissəsinə görə, dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır [3]. Həmçinin müvafiq maddənin V hissəsinə əsasən hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir [3].

Məhz yuxarıda qeyd edilən yanaşmadan irəli gələrək hüququn ayrı-ayrı sahələrində bərabərlik hüququnun təmin edilməsi daha da dərindən işlənilir. Bərabərlik hüququnun təmin edilməsinin xüsusi əhəmiyyət kəsb etdiyi hüquq sahələrindən biri inzibati hüquqdur. Belə ki, əsas etibarilə bu münasibətlərin tərəflərindən biri hakimiyyət daşıyıcılarıdır, digər tərəf isə fiziki və hüquqi şəxslərdir.

İnzibati icraat zamanı bərabərlik hüququnun təmin edilməsinin normativ əsası isə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir [1]. Həmin Qanunun 12-ci maddəsinə əsasən:

1. Hamı qanun və inzibati orqan qarşısında bərabərdir.

2. İnzibati orqan tərəfindən eyni mühüm faktiki hallara malik olan müxtəlif işlər üzrə müxtəlif qərarların qəbul edilməsi qadağandır.

3. İnzibati orqan tərəfindən fərqli mühüm faktiki hallara malik olan müxtəlif işlər üzrə eyni cür qərarların qəbul edilməsi qadağandır.

4. İnzibati orqan diskresion səlahiyyətləri eyni üsulla və eyni qaydada həyata keçirməyə borcludur. Bu müddəa diskresion səlahiyyətlərin icrası ilə bağlı mövcud inzibati praktikanın dəyişdirilməsini istisna etmir.

İnzibati icraat dövlət-şəxs, şəxs-hakimiyyət münasibətləri probleminin səmərəli həlli yollarının axtarışında yaradılmış mühüm institutlardan biridir. Bu institutun məqsədi inzibati orqanlar üçün hüquqi başlanğıcların, rəhbər istiqamətlərin müəyyən edilməsi, bütün idarəçilik orqanları üçün ümumi olan qaydalar qəbul etməklə, hakimiyyət səlahiyyətlərinin həyata keçirilməsi sahəsində hüquqi yanaşmaların vahidliyini təmin etməkdən ibarətdir. İnzibati icraat institutu dövlət orqanlarının və ya hakimiyyət səlahiyyətlərini həyata keçirən şəxslərin idarəçilik fəaliyyəti ilə bağlı istifadə etdiyi üsul və qaydaların konstitusion prinsiplərə əsaslanmasını, hüquqi dövlətin tələblərinə, ədalət və mütənasiblik meyarlarına cavab verməli olmasını, maraqlı şəxslərin mənafelərinin nəzərə alınmasını tələb edir [6].

İnzibati orqanların idarəçilik fəaliyyətinin vahid icraat qaydalarının müəyyən edilməsi yolu ilə hakimiyyətdən sui-istifadənin, şəxslərin hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması mümkündür ki, əks halda hakimiyyət səlahiyyətlərinin qanunla müəyyən edilmiş çərçivədən kənarda həyata keçirilməsi üçün şərait yarana bilər [10]. Belə olan halda, hər bir dövlət orqanı öz səlahiyyətlərini dəqiq və aydın şəkildə müəyyən olunmuş, bütün dövlət orqanları üçün eyni cür və vahid qaydalar əsasında həyata keçirməlidir ki, idarəçilik fəaliyyəti ilə bağlı icraat qaydalarının inzibati orqanların hər biri tərəfindən ayrı-ayrılıqda müəyyən olunması məqbul deyildir.

İnzibati icraat institutu konstitusiya prinsipləri əsasında nizama salınan icraat qaydalarının vahidliyini, şəffaflığını və sadəliyini müəyyən etməklə yanaşı, şəxsləri inzibati orqanların və onların vəzifəli şəxslərinin özbaşınalığından, süründürməçiliyindən qorumaq üçün lazımi təşkilati-hüquqi mexanizmlərin yaradılmasını

özündə ehtiva edir [9]. Bu çərçivədə şəxs dövlət orqanları tərəfindən idarəçilik fəaliyyəti ilə bağlı qəbul edilmiş qərarların və dövlət orqanlarının hərəkətlərinin (hərəkətsizliyinin) əsaslılığını və qanuniliyini öz hüquq və mənafeləri baxımından qiymətləndirmək, eləcə də onları inzibati və ya məhkəmə qaydasında mübahisələndirmək hüququna malikdir. Bununla da, bir tərəfdən qanunsuz hərəkətlərə yol vermiş şəxslərin hüquqi məsuliyyətə cəlb olunmasına, digər tərəfdən isə şəxslərin qanuni mənafelərinin təmin olunmasına nail olunur.

Bununla belə nəzərə alınmalıdır ki, inzibati icraatın həyata keçirilməsi üçün qaydaların hamısının qanunverici tərəfindən müəyyən edilməsi qeyri-mümkündür. İctimai münasibətlərin inkişafı və dəyişkənliyi nöqteyi-nəzərindən, şəxs-dövlət münasibətləri müstəvisində baş verəcək bütün halların qabaqcadan öngörülməsinin və tənzimlənməsinin mümkünsüz olması səbəbindən, ortaya çıxmış yeni bir vəziyyətdə və ya hüquqi böhran zamanı inzibati orqanların hərəkət qaydalarının müəyyən edilməsi həmin inzibati orqanların səlahiyyətindədir ki, bu zaman onların «hərəkət zolağını» hüquqi dövlətin ümumi prinsipləri müəyyən edir. Bu prinsiplər arasında qanunçuluq və onun əsas elementlərindən olan hüquqi müəyyənlik prinsipi xüsusi rol oynayır və onlar bütün icraat boyu birbaşa təmin edilməlidirlər [8].

Məhz bu məqsədlərin yerinə yetirilməsi üçün ilk növbədə inzibati orqanlar tərəfindən qanunun aliliyi rəhbər tutularaq aparılan inzibati icraat zamanı bütün şəxslərə bərabər imkanlar təmin edilməlidir. Yəni inzibati icraatın başlama anından sonlandırılmasına qədər atılan addımlar nəzərdə tutulur. Hər hansı bir keyfiyyətə görə ayrı-seçkiliyin tətbiq edilməsi yolverilməzdir [7].

Azərbaycan Respublikası Ali Məhkəməsinin *** (üç ulduz) statuslu 15.12.2023-cü il tarixli 2-1(102)-1842/2023 nömrəli qərarında əks olunan mövqeyə əsasən Konstitusiyada və qanunlarda təsbit olunmuş bərabərlik hüququ onu tələb edir ki, hər kəs dövlət xidmətləri qarşısında bərabərlik hüququna malikdir. Bu hüquq müxtəlif vaxtlarda və müxtəlif şəxslərə münasibətdə eyni faktiki və hüquqi hallara malik işlər üzrə inzibati orqanlar tərəfindən fərqli qərarların çıxarılmasını qadağan edir. İnzibati orqanlar öz səlahiyyətlərini icra edərkən vətəndaşlar qarşısında bərabər yanaşma və etimadın qorunması prinsiplərini təmin etməli, mövcud inzibati praktikaya uyğun hərəkət etməlidir.

Nəticə

Araşdırma nəticəsində belə bir qənaətə gəlinmişdir ki, dövlət-şəxs, şəxs-hakimiyyət münasibətlərinin hakimiyyət səlahiyyətlərinə malik olmayan tərəfi olan fiziki və hüquqi şəxslərin hüquq və azadlıqlarının təmin edilməsində inzibati icraatın prinsiplərinə, xüsusən də bərabərlik prinsipinə əməl edilməsi mühüm əhəmiyyət daşıyır. Bu tənzimləmə müxtəlif vaxtlarda və müxtəlif şəxslərə münasibətdə analoji xüsusiyyətlərə malik işlər üzrə fərqli qərarların qəbul edilməsinin qarşısının alınması məqsədlərinə xidmət edir. Nəzərə alınmalıdır ki, bərabərlik prinsipi diskresion səlahiyyətlərin həyata keçirilməsi zamanı xüsusi əhəmiyyət daşıyır. Belə ki, həmin prinsiplə ehtiva olunan bərabər yanaşma tələbi diskresion səlahiyyətlərin düzgün həyata keçirilməsinin ilkin şərti kimi çıxış edir. Belə ki, inzibati orqan diskresion səlahiyyətlərin həyata keçirilməsi zamanı vətəndaş qarşısında bərabər yanaşma prinsipini təmin etmək öhdəliyi daşıyır.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının “İnzibati icraat haqqında” Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/11254

2. Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsi. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46956
3. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər): [Elektron resurs]/URL: http://www.e-qanun.az/framework/897
4. S.F. Əliyev. İnzibati hüquq. – Bakı: Elm və Təhsil, – 2023. – 636 s.
5. S.F. Əliyev. İnzibati hüquq. Bakı: Ləman Poliqrafiya nəşriyyatı, – 2019. – 725 s.
6. Səyyad Kərimov, Günəş Vəliyeva. İnzibati icraat haqqında Azərbaycan Respublikası Qanunun kommentariyası. - Bakı: Hüquq ədəbiyyatı, – 2006. – 464 s.
7. Sübhan Əliyev. İnzibati Prosessual Məcəllənin Kommentariyası. – Bakı: Elm və Təhsil, – 2024. – 777 s.
8. Stroink & van der Linden. Judicial Lawmaking and Administrative Law.-Cambridge: Intersentia, – 2005. – 630 p.
9. Bickenbach, Christian. Das Bescheidungsurteil als Ergenbis einer Verpflichtungsklage.-Berlin: Duncker&Humboldt, – 2006. – 247 p.
10. Endler Jan. Der Verwaltungsprozess, 3. überarbeitete und erweiterte Auflage. München: C.H. Beck, – 2002. – 1211 p.
11. Schmidt Rolf. Allgemeines Verwaltungsrecht, 20. Auflage. Hamburg: Verlag Rolf Schmidt, – 2017. – 516 p.
12. Schmidt Rolf. Verwaltungsprozessrecht. 18. Auflage. Hamburg: Verlag Dr. Rolf Schmidt, – 2016. – 400 p.
13. Verwaltungsgerichtsordnung. https://www.gesetze-im-internet.de/vwvfg/
14. Würtenberger Thomas. Verwaltungsprozessrecht, 3. Auflage. München: C.H. Beck, – 2007. – 406 p.

Магаррамов Амиль Камиль оглу,
докторант юридического факультета Национальной авиационной академии,
специализация «Конституционное право, муниципальное право»

ОБЕСПЕЧЕНИЕ ПРАВА НА РАВЕНСТВО, ОДНОГО ИЗ КОНСТИТУЦИОННЫХ ПРАВ ЕСТЕСТВЕННЫХ И ЮРИДИЧЕСКИХ ЛИЦ, В ХОДЕ АДМИНИСТРАТИВНЫХ ПРОЦЕДУР

РЕЗЮМЕ

В представленной статье анализируются правовые основы реализации права на равенство как одного из фундаментальных прав человека и гражданина в деятельности административных органов при осуществлении административного производства, а также решение Верховного Суда Азербайджанской Республики, направленное на формирование единообразной судебной практики в сфере обеспечения права на равенство.

Maharramov Amil Kamil,
Doctoral student, Law Department, National Aviation Academy,
“Constitutional Law, Municipal Law” specialty

ENSURING THE RIGHT TO EQUALITY, ONE OF THE CONSTITUTIONAL RIGHTS OF NATURAL AND LEGAL PERSONS, DURING ADMINISTRATIVE PROCEEDINGS

SUMMARY

The article analyzes the legal foundations for the implementation of the right to equality as one of the fundamental rights of individuals and citizens in the activities of administrative authorities during administrative proceedings, as well as the decision of the Supreme Court of the Republic of Azerbaijan aimed at establishing uniform judicial practice in the field of ensuring the right to equality.

Redaksiyaya daxilolma tarixi: 17.05.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 22.06.2026
Çapa qəbul olunma tarixi: 23.06.2026